*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 37-43* *ISSN: 2663-4406*

**UOT:** 821.512.162(091)

Təranə Məmmədova*

# XAQANİ YARADICILIĞINDA NƏSİHƏTLƏR VƏ ONLARIN MƏZMUN İSTİQAMƏTLƏRİ

***Xülasə***

Klassik Şərq ədəbiyyatında ən çox istifadə olunan janrlardan biri nəsihətlərdir. Bu nümunələrə bir çox klassik dövr sənətkarlarının yaradıcılığında geniş şəkildə rast gəlinir. İntibah dövrünün nümayəndəsi Xaqani Şirvani də belə sənətkarlardan biridir. Onun zəngin və çoxyönlü yaradıcılığı bu baxımdan istisna deyildir.

Məqalədə Xaqani Şirvani yaradıcılığında işlənən nəsihətlər müxtəlif yönlərdən araşdırılmışdır. Belə ki, həm nümunələrin məzmun xüsusiyyətləri, həm də işlənmə yeri və üslubuna diqqət yetirilmişdir.

Birbaşa "Nəsihət" başlıqlı əsərlərilə yanaşı, Xaqaninin ayrı-ayrı əsərlərində də bir sıra öyüd, nəsihət xarakterli misra və parçalara rast gəlinir. Bu nümunələrdə əsasən yüksək insani keyfiyyətlər təriflənir. Dostluq, çalışqanlıq, müsbət davranışlar təbliğ edilir, əksinə mənfi xarakterlər qınanır və onlardan uzaq durmaq tövsiyə edilir

**Açar sözlər:** Xaqani Şirvani, poema, qəsidə, nəsihət, tərbiyə, dil, əxlaq

## ADVICES IN THE WORK OF KHAGANI AND DIRECTIONS OF THEIR CONTECT.

***Summary***

One of the most widely used genres in classical Eastern literature is a manifestation. Admonition is encountered in the creativity of many classic period artists. The great representative of the renaissance period, Khagani Shirvani is one of such artists. His creativity is not an exception from this point view too.

Admonitions in creativity of Khagani Shirvani are mentioned in the article. The features of content, the peculiarities of form are investigated.

**Key words:** Khagani Shirvani, poem, kasida, admonition, discipline, language, morality

## НАСТАВЛЕНИЯ В ТВОРЧЕСТВЕ ХАГАНИ И ИХ СОДЕРЖАТЕЛЬНЫЕ НАПРАВЛЕНИЯ

***Резюме***

Наставления широко используются в классической восточной литературе. Эти образцы встречаются в творчестве многих мастеров классического периода. Великий представитель периода Возрождения Хагани Ширвани в своём литературном наследии создал интересные образцы наставлений.

В статье в основном повествуется об особенностях использования наставлений в творчестве Хагани Ширвани. Одновременно исследованы круг их тем и вопросы особенностей их форм.

**Ключевые слова:** Хагани Ширвани, поэма, касыда, наставление, воспитание, язык, мораль

**Giriş.** Şərq ədəbi fikrinin görkəmli simalarından Əfzələddin Xaqani Şirvani klassik Azərbaycan ədəbiyyatına ideya cəhətdən yüksək humanist məzmun gətirmiş dahi sənətkarlarımızdan biridir. Bu böyük söz ustadının zəngin və çoxşaxəli yaradıcılığına diqqət yetirdikdə görünür ki, insanın mənəvi tərbiyəsi şairin yaradıcılığında özünəməxsus yer tutur.

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. E-mail: terane873@gmail.com

“Nəsihətnamə klassik Şərq və Azərbaycan ədəbiyyatında didaktik səciyyə daşıyan, həm nəzmlə, həm nəsrlə yazılan əsərlərdir. Bu qəbil əsərlərdə yüksək insani sifətlər, biliyin faydası, böyüklərə hörmət, zəhmətə məhəbbət və s. təbliğ olunur” [1, s.76]. Klassik Şərq ədəbiyyatı üçün xarakterik olan və Xaqani yaradıcılığında da geniş yer alan bu nümunələr şairin bədii irsində özünəməxsus formalarda əksini tapmışdır. Belə ki, nəsihət həm onun əsərlərində ayrı-ayrı parça və misralarda, həm də birbaşa nəsihət adlı lirik nümunələr şəklində özünü göstərir.

Şairin yaradıcılığında “Töhfətül-İraqeyn” poeması, “Mədain xərabələri” və “Miratüs-səfa” kimi irihəcmli qəsidələrinin məzmununda nəsihət önəmli yer tutmaqla yanaşı, onun sırf nəsihət xarakteri daşıyan əsərləri də vardır. Xaqaninin “Nəsihət”, “Hikmət və nəsihət”, “Dünyaya uymamaq üçün nəsihət” kimi şeirləri bu qəbildəndir. Belə əsərlərdə müxtəlif mövzulara toxunan şairin nəsihətləri məzmun baxımından rəngarəngdir.

Məlumdur ki, Xaqani Şirvani klassik Azərbaycan ədəbiyyatında ilk poemanın müəllifidir. “Töfhətül-İraqeyn” adlanan və məzmun etibarilə ictimai-fəlsəfi xarakterli bu poemada şair öz nəsihətlərinə də yer vermişdir.

Xaqaninin ilk nəsihətləri əsərdə “Cəmaləddin Mosulu ilə görüş və onunla söhbət” adlı fəsildə başlayır. Şair, Cəmaləddinin dilindən verilən nəsihətlərdə maraqlı məzmun xətti yaratmış, şahla görüşmək istəyən və özünü tərif edən şairə ilk nəsihəti belə olmuşdur:

*Dedi: “Natamamsan, bil ki, hələ sən,*
*Qayıt, o məqama layiq deyilsən!*
*“Mənəm, mənəm” deyib öymə özünü!*
*Həmişə müxtəsər söylə sözünü.*
*Cahildir özünü tərif edənlər,*
*Çox “bilirəm” demə, bilsən də əgər* [2, s.38].

Əsərdə verilən nəsihətlərdə maraqlı məqamlardan biri də bir neçə nəsihət motivinin yanaşı qoyulmasıdır. Belə ki, dövrün hakimlərinin, şahlarının iç üzünü açmaqla, onlarla davranış qaydalarını göstərməklə yanaşı, şair həm də dil haqqında, az danışmağın fəzilətləri barədə və təvazökar olmaqla bağlı da dəyərli öyüdlər verir:

*Sən heç, şah zəngin bir xəzinədir.*
*Xəzinəni bağlı gördüyün zaman,*
*Yatmış əjdahanı oyatma, aman!*
*Bir az təvazölə danış sözünü,*
*Heç döyüb döşünə, öymə özünü!*
*Az danış, hörmətlə durasan gərək,*
*Müəllim önündə duran şagirdtək* [2, s.39].

Göründüyü kimi, zamanının hökmdarını yatmış əjdahaya bənzədən şair, onunla ehtiyatlı olmağı məsləhət bilir. Dili sıyrılmış qılınca bənzədib, dilsizliyi cənnətin açarı hesab edən şair, dilsiz balığın bürcə çevrilərək göylərdə yer tutduğunu, iki dilli ilanın isə cənnətdən qovulduğunu vurğulayaraq maraqlı bənzətmə yaratmışdır. Və bu nəsihətini aşağıdakı misralarla tamamlamışdır:

*Canını saxlamaq istəsən, əgər*
*Dilini özündə saxla bir təhər* [2, s.39]

Sonrakı misralarda elm, oxuyub-öyrənməyin fəzilətləri haqqında maraqlı nəsihətlər qələmə alan şairin aşağıdakı misraları da maraq doğurur:

*Qayıt, geri qayıt buradan, hökmən,*
*Get, öz doğulduğun yerdə yaşa sən!*
*Məktəbdə elm oxu, fənn öyrən, dərs al,*
*Hər nə oxumusan, bir-bir yada sal.*
*Əcəmi olduğun yetər, indidən,*
*Get, otur, bir az da ərəbcə öyrən.*
*Get, oxu, İraqa gəlmək istəsən,*
*Haçan püxtələşdin, onda gələrsən* [2, s.39-40].

Əsərdə ikinci nəsihət xarakteri daşıyan parça şairin Xızırla görüş səhnəsindədir. Bu parça bədiiliyi və dərin fəlsəfi mənası ilə seçilən və əsərdə xalq ədəbiyyatından gələn cizgi və motivlərin güclü olduğunu göstərən bir hissədir.

Bildiyimiz kimi, şairin dünyagörüşündə, yaradıcılığında əxilik, əxiliyin fəlsəfi-əxlaqi görüşləri önəmli yer tuturdu. Bu baxımdan "XII yüzillikdə əxiliklə bağlı olan mənqəbəvi-mifik anlayışlarda, el ədəbiyyatında Xızır obrazı, dirilik suyu, Xeyrəvan şəhəri ayrıca bir yer tutmuşdur. Xızır obrazı Şirvanla, Xəzər dənizi ilə bağlı təsəvvür olunur. Dirilik suyunun Muğanda, Şirvanda axdığından danışılır" [3, s.461].

*Mənə üz tutaraq, dedilər belə:*
*- Ey Xızır, get, ona nəsihət elə!*
*Yar ol sənətkara ömrü uzunu,*
*Xətadan, bəladan hifz elə onu.*
*İndi, sözlərimi yaxşı dinlə, həm*
*Xatirində saxla, bunları möhkəm.*
*Hər sözüm qızıldır, gövhərdir, sən də,*
*Bunları, gəl, hifz et can xəzinəndə* [2, s.47].

Xızırın dilindən verilən nəsihətlərdə şair, qadının cəmiyyətdəki mövqeyini qorumaqla yanaşı, əxlaqi davranış məsələlərinə toxunmuş, eyni zamanda dövranın, dünyanın etibarsızlığı, ona uymamaq barədə də nəsihətlərini vermişdir:

*Qoru hurilərin ismətini sən,*
*Əyri adamlardan, yol kəsənlərdən.*
*Sən, sözün qədrini bilməyəndən qaç,*
*Gəlinin üzünü sevənlərə aç!*
*Mühüm nəsihətim budur ki, zaman,*
*Sənin pusqundadır, unutma bir an.*
*Fikir ver, daha bir nəsihətim var:*
*Etibarsız olur bal rəngli, ruzgar,*
*Durma kölgəsində ikirənglinin*
*Olma heç fələyin felinə əmin,*
*Baxma, nə rənginə, nə də iyinə*
*Axşamın, səhərin gözəlliyinə.*
*Kişinin bəzəyi silahdır, inan,*
*Arvadın bəzəyi, ənliklə kirşan!* [2, s.47]

Xızırla söhbət hissəsində, xüsusən, Xızırın nəsihətlərində maraqlı məqamlardan biri də, Xızırın dini, Quranı təbliğ edən, fəlsəfəni, yunan filosoflarını tənqid edən görüşləridir. Bu, Xaqaninin dini görüşlərinin ifadəsi baxımından xüsusilə qiymətlidir:

*Önündə, məlum ki, anlayır hər kəs,*
*Yunan fəlsəfəsi bir çöpə dəyməz.*
*Vaz keç bu hədisdən, heç bənd olma, sən!*
*Bir filus yaxşıdır min fəlsəfədən.*
*Canını, gəl, dinə sən tapşır ancaq,*
*Səni şübhələrdən o qurtaracaq* [2, s.49].

Yaxud

*Gəl dinə arxalan, unutma dini,*
*Böyük sanma yunan Üqlisidini* [2, s.50].

Göründüyü kimi, din Xaqani üçün çox önəmlidir. O, dini əxlaq anlayışı ilə yanaşı qavrayan, hətta bu iki anlayışı eyniləşdirən bir sənətkar olmuşdur.

Xaqani Şirvaninin əxilik – fəlsəfi-humanist ideyaları, əsasən, "Miratüs-səfa" əsərində öz əksini tapır.

"Xaqaninin qəsidələri başqa qəsidələrdən fərqli olaraq hikmətli söz və nəsihətlərlə zəngindir. Xüsusilə də onun "Şiniyyə" və ya "Miratül-səfa"sını qeyd etmək olar ki, hikmət dolu sözlərinin sayəsində Xaqaninin əxlaq və bu kimi məzmunlara olan baxışını tamamilə açıq-aşkar oxucu önünə sərgiləmişdir. Onun "Şiniyyə" qəsidəsi bir əxlaq və təlim-tərbiyə üzrə qanun kitabı kimi də sayıla bilər. Ona görə ki, bütün əxlaqi nöqtələr, eyni zamanda təlim-tərbiyə, sükut fəlsəfəsinin öyrənilməsi, infaq və hətta Peyğəmbərin mədhi, dindarlıq və tərki-dünyalıq kimi anlayışların hər biri müxtəlif formalarda qeyd olunubdur. Xaqani bu qəsidədə dünyanın məzəmmətindən və zahiri gözəlliklərə etinasızlıqdan danışır" [4].

Bu ideyaların öz əksini tapdığı əsərdə şair, əsasən, nəfsin tərbiyəsi, etibarsız dünyaya aldanmamaq üçün öyüd-nəsihət verir.

*Əgər nəfsin məzarında tikan bitmişsə, şükr eylə!*
*Tikan zahirdədir, sən batinə bax, gülgülüstanı* [2, s.102].

Xaqaninin digər irihəcmli əsəri "Mədain xərabələri" qəsidəsidir. Əsərdə "Gənclərə nəsihət" adlı ayrıca parça da verilmişdir. Bu parçanı səciyyələndirən maraqlı cəhətlərdən biri də, yaş xüsusiyyətlərinin, yaş dövrü ilə bağlı psixoloji amillərin nəzərə alınması, nəsihətlərin buna uyğun verilməsidir. Burada, xüsusən, hiyləgərlik, fitnəkarlıq, lovğalıq kimi mənfi xarakterik xüsusiyyətlər pislənir, onların mənfi nəticələri paralel vurğulanır. Gənclərə bu qəbil hərəkətlərdən uzaq durmaq öyüdü verilir.

*Fitnə törətmə, ey fitnəkar cavan!*
*Fitnədir elləri dərdlərə salan.*
*Cana məlhəmsədə vəfa, etibar,*
*Fitnəkarlıq edər onu tarimar.*
*Məhşərin sübhüdür, lağım atma sən,*
*Gizli lağım qazan qorxar sübhdən* [5, s.241].

Mənfi əməlin əvvəli nə qədər xoş görünsə də, ağır nəticələrinin olduğunu qeyd edən şair, gəncləri aldanmamağa, hər pisliyə əl atmamağa çağırır, məkrdən, hiylədən, oğurluqdan uzaq olmağı nəsihət edir:

*Hiylə - oğurluqdur, xoşsa əvvəli,*
*Oğrunun axırda kəsilər əli.*
*Hiylənin şişindən qızarır üzün,*
*O qızaran üzlər şişəndir bütün.*
*Nifaq xəstəsisən nə qədər ki, sən –*
*Əlac saymaqdan da ziyan görərsən* [5, s.241].

Əsərdə dostluqla bağlı dərin məzmunlu nəsihətlər də öz əksini maraqlı formada tapmışdır. Belə ki, gənclərdə dostluqda düzgün seçim etmək, dostluğa, dosta sonsuz sevgi, məhəbbət, sərhədsiz inam və etibar aşılayan nəsihətamiz misralar təkrarçılıqdan uzaq və orijinal olması ilə diqqəti cəlb edir.

*Çalış az dostluq et, etsən də əgər,*
*Dostluqda möhkəm ol, sözdə mötəbər.*
*Dostu qovanları alma yanına,*
*Yoxsa gözün ağlar bu əhvalına* [5, s.242].

Dostluq motivi şairin başqa əsərlərində də özünü göstərir. Belə ki, "Hikmət və nəsihət" adlı qəsidəsində bənzər fikirlərə təsadüf olunur. Ümumiyyətlə, hər iki şeirin məzmunu bir-biri ilə yaxından səsləşir. Aşağıdakı nümunəni nəzərdən keçirək:

*Az dostluq et həyatda, dostluq etsən də əgər,*
*Güzəşt olsun şüarın, budur dostluqda hünər.*
*Əgər korluq pərdəsi gəlməmişdir gözünə,*
*Birini dost qovubsa, yaxın qoyma özünə.*
*Bir şəxsin ki, öz dostu haqlı vurub belindən,*
*Pisliyinin əcridir, tutma onun əlindən!* [2, s.392]

Ancaq, nə qədər bənzər misralara yer verilsə də, diqqət etdikdə görürük ki, şairin işlətdiyi incə priyomlar təkrarın qarşısını alır. Əgər şair "Gənclərə nəsihət"də dostun hərəkətlərinə qeyri-şərtsiz inamı təbliğ edir, onun qovduğu, uzaqlaşdırdığı, müttəhim etdiyi insanları yaxınına buraxmamağı tövsiyə edirsə,

*Dostun haqlı vursa birini zinhar,*
*Demək ki, layiqdir, çıxma havadar.*
*Dostun bir adamı ayaqdan salsa, -*
*Ucaltma başını, Cəmşid də olsa.*
*Dost müttəhim edib, kimi etsə rədd, -*
*Qardaşın olsa da, önünə çək sədd* [5, s.242].

"Hikmət və nəsihət" şeirində bu məqam cüzi fərqlərlə verilmiş, öz dostu tərəfindən sevilməyən, dostu tərəfindən uzaqlaşdırılan insanlara bel bağlamamaq tövsiyə olunmuşdur:

*Bir şəxsin ki, öz dostu haqlı vurub belindən,*
*Pisliyinin əcridir, tutma onun əlindən!* [2, s.392]

Şairin nəsihətlərində həm də zahiri əlamətlərə uymamağa, daim daxili xüsusiyyətləri, mənəvi yüksəkliyi əsas götürməyə çağırış vardır:

*Gördüyün hər kəsi zənn etmə insan,*
*İnsan var ki, əslən şeytandır şeytan.*
*Boyun böyüklüyü deyildir gərək,*
*Hümmət böyük olsun, bir də ki, ürək* [5, s.243].

“Gənclərə nəsihət”də verilən bu xüsusiyyət “Hikmət və nəsihət” qəsidəsində də özünü aşağıdakı kimi göstərir:

*Adam demə hər yetən avaraya, amandır!*
*Adam var, təbiəti şeytandan da yamandır.*
*Böyüklüyü göstərmir uca boy, enli kürək,*
*Hümmətiylə böyükdür yumruq boyda bir ürək* [2, s.394].

Şairin nəsihət yaradıcılığında dostluqla yanaşı, ədəb, tərbiyə məsələlərinə də geniş yer verilmişdir. Ədəbi yüksək qiymətləndirən şair “Gənclərə nəsihət”də yazır:

*Ədəbdən canına bir tilsim düzəlt,*
*Kəsranın tacına ədəbdir zinət* [5, s.243].

Yenə “Hikmət və nəsihət”də ədəb məsələsinə toxunan şair belə yazır:

*Ədəbli ol, unutma, ədəb qılıncı ilə,*
*Ərəb Əcəb mülkünü asan keçirmiş ələ* [2, s.395].

Göründüyü kimi, hər iki qəsidədə oxşar fikirlər olduqca çoxdur. Ancaq şair bir əsərdə verdiyi və üzərindən keçdiyi hər hansı motivi digər şeirinin əsas mövzusuna çevirmişdir.

Şairin həm dostluq, həm dini, həm də davranış xüsusiyyətləri haqqında dəyərli nəsihətlərinin əks olunduğu şeirlərindən biri də “Nəsihət” əsəridir. Əsasən, davranış, ədəb qaydaları haqqında nəsihətlərin üstünlük təşkil etdiyi şeirdə, şair oxucuya qaşqabaqlı olmamağı, yerini bilməyı, böyüklərlə düzgün davranmağı və doğru qərar verməyi bacarmağı öyüd-nəsihət etməklə yanaşı, əksinin gətirə biləcəyi ağır nəticələri də vurğulamağı unutmur:

*Qaşqabaqlı olma, Günəştək göylərə qaldırma baş,*
*Gölgətək yoxsa taparsan bir quyu içrə məqər* [2, s.405].

Xaqani Şirvaninin “Ey Xaqani, çörək üçün öz abrını tökmə sən” misrasıyla başlayan şeiri də başdan-başa nəsihət məzmunu ifadə edən əsərlərindəndir. Burada, əsasən, nəfsin tərbiyəsi ön plana çəkilmiş, tamahkarlıq pislənmişdir. Şeirdə nəsihətlə paralel örnəklərin gətirilməsi də diqqəti cəlb edən maraqlı məqamlardan biridir.

*Ey Xaqani, çörək üçün öz abrını tökmə sən,*
*Bil, abrını tökən tamah canı alar əlindən.*
*Bilirsən ki, nələr çəkdi Adəm buğda ucundan,*
*Onun kimi dərdə düşər çörək deyən hər insan* [2, s.397].

Bundan başqa “Pis yoldaşdan ehtiyat et, qorx ondan!”, “Qəm yemə dünyada yoxsa həmdəmin, ol şadkam” kimi misralarla başlayan şeirlərində də şair oxuculara insanpərvərliyi, dünyadakı çirkinliklərdən çəkinməyi məsləhət bilmiş, nəsihətlərini bədii boyalarla oxucusuna təqdim etmişdir.

**Nəticə.** Beləliklə, bütün deyilənlər bir daha göstərir ki, Xaqani Şirvaninin yaradıcılığında nəsihətlərin ayrıca bir yeri vardır. Şairin qələmə aldığı nümunələrin hər biri ədəbiyyatımızda nəzmlə yazılan nəsihətnamələrə gözəl nümunə sayıla bilər. Xüsusilə, "Mədain xərabələri" qəsidəsində "Gənclərə nəsihət" adı ilə yer alan parçada, eləcə də "Töhfətül-İraqeyn" poemasında əxlaqi-didaktik məsələlərin geniş yer tutması nəsihətnamələrin Xaqani yaradıcılığında ayrıca bir istiqamətə çevrildiyini göstərir. Şairin bəhs edilən əsərlərinin müasir dövr insanının mənəvi tərbiyəsində böyük rolu vardır və onların geniş şəkildə araşdırılması və təbliği olduqca əhəmiyyətlidir.

**ƏDƏBİYYAT**

1. Quliyev E., Quliyev V. Özümüz və sözümüz. Bakı, Azərnəşr, 1993.
2. Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı, "Lider nəşriyyatı", 2004.
3. Azərbaycan ədəbiyyatı tarixi: 6 cilddə, I c. Bakı, "Elm", 2007.
4. http://edebiyyatqazeti.az/news/proza/188-xaqani-sirvaninin-meratul-sefa-sinin-serhi
5. Azərbaycan klassik ədəbiyyatından seçmələr: 3 cilddə, I c. Bakı, "Şərq-Qərb", 2005.